# Xıdır Nəbi bayramının mərasimi strukturu



*Şakir ALBALIYEV,*
*AMEA Folklor İnstitutu,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*

Məsələnin qoyuluşu: Xıdır Nəbi bayramı da Novruz bayramı kimi mərasimlərdən ibarət kompleksdir. Bu mərasimlər yaş qrupu baxımından uşaqlar və böyüklər arasında bölünür. Biz burada böyüklərin icra etdiyi "Xıdır Nəbi" mərasiminin strukturunu əldə olan materiallar, o cümlədən mövcud tədqiqatlar əsasında öyrənməyə çalışacağıq.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Xıdır Nəbi bayramının mərasimi strukturunu araşdırmaqdır.

"Xıdır" mərasimini ibtidai insanların etiqadını, dünyagörüşünü, təbiət hadisələrinə münasibətini göstərən bayram kimi səciyyələndirən P.Əfəndiyev yazır ki, ""Xıdır", "Xıdır Nəbi", yaxud "Xıdır İlyas" haqqında olan nəğmələr yaşıllıq, yağış arzusu ilə təşkil edilən mərasimlərdə oxunmuşdur" [2, s. 80]. Təbii ki, sözü gedən mərasim insanların həm də yaşıllıq, yağış arzusu ilə bağlıdır. Ancaq bu mərasimlərin semantikası bundan daha geniş mənaları ifadə edir. İnsanlar Xıdırdan təkcə yaşıllıq, yağış yox, ümumən xeyir-bərəkət istəmişlər. Buraya insanların övlad arzuları da daxil olmuşdur.

Gülxani Pənah müxtəlif ayin və mərsimləri birləşdirən "Xıdır Nəbi" mərasim kompleksinin ümumən üç mərhələdən ibarət olduğunu göstərir. O yazır: "Xıdır Nəbi sanki qışın gəlişiylə peyda olur, məhsul toplanana qədər insanların içərisində olur. Xıdır ağır çillərdən bəri xalqın içindədir. Əldə olan miflərə, mərasim mətnlərinə əsasən deyə bilərik ki, Xıdır Nəbi - Xıdır Əlləz - Xızır Əleyhisalam Azərbaycan rituallarında üç mərhələdə görünür" [4, s. 250].

Müəllifin bu fikri də təsdiq edir Xıdır Nəbinin funksional semantikası yalnız yaşıllıq və yağışla məhdudlaşmır: o, geniş funksiyalı obrazdır. Əgər Xıdır qışın gəlməsi ilə peyda olursa, bu, o deməkdir ki, o, insanlara sərt qışı asan keçirmələri, onun bəlalarından, fəsadlarından qorunmaq üçün kömək etməyə gəlir. Xıdır Nəbinin Kiçik Çillədə daha çox görünməsi onunla bağlıdır ki, Kiçik Çillədən qabaq gələn 40 günlük Böyük Çillədə havalar Kiçik Çillə qədər sərt keçmir. Bundan başqa, hələ insanların və heyvanların ərzaqı, yemi tükənməmişdir. Lakin Kiçik Çillə girdikdə havalar sərtləşir, yazın gəlişi gecikir və insanlar qorxu, narahatlıq keçirməyə başlayırlar. Xıdır öz gəlişi ilə Kiçik Çillənin fəsadlarını aradan qaldırmağa başlayır. Axı o, öz gəlişi ilə yazqabağı Bozayı gətirir. Bu, Xıdır Nəbiyə asan başa gəlmir: Kiçik Çillənin yaratdığı fəsadlar ona gəlməyə mane olur, bəzən atı palçığa batır, bəzən də özü palçıqda ilişib qalmış atın yanında yuxuya gedir.

G.Pənah "Xıdır Nəbi" mərasiminin birinci mərhələsi haqqında yazır: "Xıdır Nəbi qışın ən sərt çağında xalqın yanındadır. Çillələrin ağır keçdiyi dövrdə xalqın yanındadır. Fevralda kiçik çillənin onuncu - on dördüncü günlərində xalq onun gəlişini bayram edir. O, xalqı çətinliklərdən qurtarmaq üçün onların yanına gəlir. Çillənin ağırlıqlarının gətirdiyi çətinlikləri insanlar özlərinə kədər, qəm eləməmək üçün Xıdır Nəbini gözləyirlər. Onu qonaqpərvərliklə qarşılayırlar. Qadınlar müxtəlif evlərdə yığışıb, səhərə qədər yatmır, Xıdır Nəbinin gəlişini gözləyir, bayram edir, onun vasitəsilə çillənin kiçiyinin "şıltaqlıqlarının" onlara zərər verməyəcəyinə inanırlar. Qovut qovurur, duzlanıb, doğranıb, küpələrə yığılıb, qış uzunu az-az istifadə etdikləri ərzaqların tükəndiyi bir zamanda bu mərasimləri keçirir, sabaha Xıdır Nəbinin vasitəsilə ümidlə baxır, aclıqdan, soyuqdan qurtulacaqlarını, bu çətin pilləni sağ-salamat adlayacaqlarına inamlarını ifadə edən nəğmələr oxuyur, mərasimlər keçirirlər:

Çillə, çillə üzdədir, Xıdır Nəbi bizdədir" [4, s. 250].

İndi alimin verdiyi bu bilgilər əsasında Xıdır Nəbi mərasiminin "birinci mərhələsinin" məkan-zaman strukturunu, həmin strukturu təşkil edən elementlərin semantikasını aydınlaşdırmağa çalışaq:

1. Mərasimin zamanı: Qışın ən sərt çağı.

2. Xıdır Nəbinin gəlişinin zaman işarəsinin xalq təqvimindəki adı: Kiçik Çillə.

3. Xıdır Nəbinin gəlişi bayramının zaman limiti: Fevralda kiçik çillənin onuncu - on dördüncü günlərində.

4. Xıdır Nəbinin gəlişinin məqsədi: Xalqı qışın Kiçik Çillə mərhələsinin çətinliklərindən qurtarmaq.

5. Xıdır Nəbinin gəlişinə insanaların kütləvi reaksiyasının forması: Qonaqpərvərlik.

6. Xıdır Nəbinin qarşılanma mərasiminin əsas iştirakçıları: Qadınlar.

7. Xıdır Nəbinin gəlişinin qarşılanma zamanı: Gecədən səhərə qədər.

8. Xıdır Nəbinin gəlişinin qarşılanma mərasimini təşkil edən ritual davranışları: - Qadınların müxtəlif evlərdə yığışması;

- Qovut qovurmaları;
- Səhərə qədər yatmamaları;
- Nəğmə oxumaları.

9. Xıdır Nəbinin gəlişinin qarşılanma mərasimində insanların Xıdır Nəbi ilə ritual ünsiyyətinin formaları (mərasimi kommunikasiya aktları): - Xıdır Nəbiyə qovut payı vermək; - Xıdır Nəbiyə nəğmələrlə müraciət etmək.

9.1. Qovut payının funksional semantikası:

Qovut - undan hazırlanır. Xıdır Nəbiyə bəzi yerlərdə qovut, bəzi yerlərdə xəşil payının verilməsi bütün hallarda untaxıləkinçörək semantikasını daşıyır. Çünki xəşil də undan hazırlanan yeməkdir. Bu, o deməkdir ki, insanlar Xıdırı undan hazırlanmış yeməyə qonaq etməklə ondan çörəklərinin bol olması üçün taxıl əkin-biçinlərinə bərəkət verməlirini istəyirlər. Bu, yenə də təkrar edirik ki, "paya pay" prinsipinə əsaslanır. Bu prinsipin bütün məhsuldarlıq kultlarının əsasında diurduğunu nəzərə alsaq, qadınlar Xıdıra pay verməklə "paya-pay" mexanizmini işə salmaq istəyirlər. Mədəniyyət tarixindən məlumdur ki, kult obyektindən nəsə almaq üçün əvvəlcə onun özünə pay (qurban) vermək lazımdır.

9.2. Xıdır Nəbi nəğməsinin funksional semantikası:

Lakin "paya-pay" mexanizmi təkcə payla işə düşmür. İnsanlar verdikləri payla bərabər Xıdır Nəbidən nə istədiklərini ona müraciətlə oxduqları nəğmədə ifadə edirlər. Bu cəhətdən, Xıdır Nəbi mərasimində onun şərəfinə oxunan nəğmələr, əslində, ona müraciətlə deyilən dualardır. Bu cəhətdən, G.Pənahın mərasimdə oxunan nəğmədən verdiyi misralar yalnız "fraqmentdir".

10. "Çillə, çillə üzdədir, Xıdır Nəbi bizdədir" misralarının emosional-psixoloji semantikası:

Misraların məzmunundan görünür ki, qadınlar sanki Kiçik Çilləyə acıq verərək, ona Xıdır Nəbinin artıq gəlib çıxdığını deyirlər. Bu, emosional-psixoloji baxımdan Xıdırın gəlişi ilə onların mənəvi dünyasının ümid sevincinin rənginə boyandığını göstərir.

G.Pənah "Xıdır Nəbi" mərasiminin ikinci mərhələsi haqqında yazır: "Xıdır Nəbi təbiətin sərt mövsümlərindən mülayim mövsümlərinə keçid dövründə də xalqın hamisidir. O, xalqın evlərini gəzir, keçirilən şənlik mərasimlərində iştirak edir. Xalqın sevincinə şərikdir. O, axırıncı çərşənbələrin iştirakçısıdır. İnsanların bir-birinə olan sevgisini, hörmətini yoxlayır. Bu bayramda hamı küsülülər barışmalıdır, cavanlar qocalarını, böyüklərini yad etməlidir, kimsəsiz, əlsiz-ayaqsızlar aranılmalı, qapısına gedilməli, bağ-bağatını təmizləməli, əkin-şumlama işinə yardımçı olmalı, onların qayğısına qalmalıdırlar. Əks təqdirdə hamı inanır ki, Xıdır Nəbi onların işlərinə göz qoyur, hər kəs etdiyi yaxşılığa görə öz əməyinin Allah tərəfindən mükafatlandırılacağına əmindir" [4, s. 250-251].

Müəllifin bu yazdığından aşağıdakı qənaətlər hasil olur: 1. Xıdır Nəbi ilə bağlı mərasimlər yalnız Kiçik Çilləni əhatə etmir. 2. Mətnlərdə açıq şəkildə görünməsə də, Xıdır Nəbi Novruz mərasimlərinin də iştirakçısıdır. 3. G.Pənahın Xıdır Nəbinin xalqın evlərini gəzməsi, keçirilən şənlik mərasimlərində iştirak etməsi haqqındakı məlumatı vaxtilə Xıdır Nəbi ilə bağlı belə mərasimlərin olmasından da soraq verir. Yada salaq ki, Qazax bölgəsindən toplanmış nəğmədə də Xıdır Nəbinin göy atın üstündə bazara gəlməsindən, bazarda insanların yazı gətirmək arzusunu yerinə yetirmək üçün saz çalıb-oxumasından söhbət açılır [1, s.101]. 4. Xıdır Nəbi Novruz mərasim kompleksinə daxil olan sosial davranış formalarının necə həyata keçirilməsinə nəzarət edir. Həmin davranış formulları aşağıdakılardır: - küsülülərin barışdırılması; - cavanların qocaları, böyükləri ziyarət etməsi; - insanların kimsəsizlərə, əlsiz-ayaqsızlara ev-eşik, həyət-baca, əkin-biçin işlərində kömək edilməsi.

Bütün bunlar cəmiyyət daxilində sosial harmoniya yaradan davranışlardır. Xıdır Nəbinin kimin bu davranışlara necə əməl etməsinə nəzarət etməsi və hər kəsi öz əməlinə görə ya mükafatlandırması, ya da cəza verməsi onun Novruz mərasim kompleksində mühüm rol oynadığını aşkara çıxarır. Buradan aydın olur ki, Xıdır Nəbi bir obraz-konsept kimi Novruz mərasim kompleksinin ayrılmaz tərkib hissəsidir. Lakin zamanla Novruz bayramının modernləşməsi, xüsusilə XI əsrdə rəsmi təqvim islahatına məruz qalması Novruz dünya modelinin mühüm ünsürü olan Xıdır Nəbi elementini arxa plana keçirmişdir. Doğrudan da, Novruz bayram komleksinə dair mərasimləri öyrəndikcə görürük ki, burada əskik olan element Novruz kultudur. Yəni ritual-mifoloji düşüncə modeli baxımından Novruz dünya modelində Novruzun bütün mifik-kosmoloji dəyərlərini özünə konsentrasiya edən kult obrazı da olmalı idi. Lakin bu obraz görünmür. Belə hesab eedirik ki, həmin kult-obraz Xıdır Nəbid olmuşdur.

G.Pənah "Xıdır Nəbi" mərasiminin üçüncü mərhələsi haqqında yazır: "Üçüncü mərhələ mayın üç-yeddisi arasına təsadüf edir. Bu dövrdə bütün insanlar evdən çıxır, çəmənliklərdə, bağ-bağçalarda dolaşır, çobanlar sürünü çöllərə tökür, bol süd götürülür, motallar düzəldilir. Əkin şumları suvarılır. Ağacların, bağların yabanı otları təmizlənir, keşniş, şüyüd, turp, soğan ləkləri alaq otlarından təmizlənir. İnsanlar bol məhsul götürmək ümidilə çalışır, əlləşir. Hamı inanır ki, Xıdır Nəbi də onlarla birlikdədir. Xıdır Nəbi ilə bağlı rəvayətlər, miflərə diqqət yetirsək, bu üç mərhələni onların məzmun və ideyasında görürük" [4, s. 251]. Müəllifin Xıdır Nəbi haqqında olan rəvayətlər, miflər əsasında bərpa etdiyi bu üç mərhələ, əslində, mifoloji düşüncənin məntiqi ilə təsdiq olunur. Xıdır Nəbi bərəkət hamisidir:

O, insanları Kiçik Çillənin əlindən alaraq, onları məhv olmağa qoymur - birinci mərhələ; Qışın gedişini, yazın gəlişini öz gücü ilə təmin edir, məhsuldarlıq hamisi kimi bütün əkin-biçini mayalayır - ikinci mərhələ; Bol məhsulun əldə olunmasını təmin edir - üçüncü mərhələ.

Bununla da Xıdır Nəbinin məhsuldarlıq, hamisi, bərəkət kultunun daşıyıcısı kimi funksiyası tamamlanır.

B.Abdulla və T.Babayevin tərtibçi-müəllifləri olduqları "Novruz bayramı ensiklopediyasında Xıdır Nəbi ilə bağlı müxtəlif həcmli aşağıdakı oçerklər vardır:

"Xıdırəlləz";
"Xıdır Nəbi";
"Xıdır Nəbi axşamı";
"Xıdır gecəsi;
"Xıdır payı";
"Xıdır Nəbi nəğməsi";
"Xıdır Nəbi küləyi";
"Xızır günü";
"Xızır (Xıdır)";
"Xızır İlyas";
"Xızırzində" [3, s. 101-104].

Bu məlumatlar əsasında "Xıdır Nəbi" mərasiminin bir ritual vahidi kimi məkan-zaman semantikasını müəyyənləşdirməyə çalışaq. B.Abdulla və T.Babayev yazırlar ki, ""Xıdır Nəbi" - türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mif və folklorunda mifik obraz, yazın gəlməsi ilə bağlı mövsüm mərasimi. Kiçik çillənin birinci ongünlüyü "Xıdır Nəbi" adlanan kimi, adı da Xıdır Nəbi mərasimidir" [3, s. 101]. Müəlliflərə görə, "Xıdır Nəbi" mərasimini hər ev, hər ailə təntənəli şəkildə qeyd etmişdir. Bayramı qeyd etməyə imkanı olmayanlara imkanlılar kömək etmişdir [3, s. 101]. Bu məlumat Xıdır Nəbi bayramının etnokulturoloji baxımdan cəmiyyəti, kollektivi bütövlükdə əhatə etdiyini göstərir. Bayramı keçirməkdə kasıblara kömək edilməsi bayramın konsepsiyasından irəli gəlir. Xıdır Nəbi bayramı el-obada, cəmiyyət daxilində sosial-mənəvi harmoniya yaradılmasına xidmət edən mexanizmdir. İnanca görə, bu mexanizmin işləməsinə elə Xıdır Nəbinin özü nəzarət edir. Bayramın sosial-fəlsəfi normalarını pozanlara Xıdır Nəbi cəza verir: onların evindən, yurdundan xeyir-bərəkəti kəsir. Bu, Xıdır Nəbinin sosial-mənəvi tarazlığın balanslaşdırıcısı rolunu oynadığını da göstərir.

*(Davamı var)*